

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 195 (21.856)

*14 oktyabr 2017-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik



## *Rəsmi xronika*

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin oktyabrın 13-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Bolqarıstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bolqarıstan Prezidenti Rumen Radevi və xanımı Desislava Radevanı qarşılayıblar.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev və xanımı Desislava Radeva ilə görüşü olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Oktyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mətbuata bəyanatlarla çıxış ediblər.



## Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının növbəti şura iclasında görülmüş işlər müzakirə olunub

Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının növbəti şura iclasında 2017-ci ilin doqquz ayında görülmüş işlər müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib. Gündəlikdə duran məsələ ilə əlaqədar partiyanın rayon təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədovun məruzəsi dinlənilib.

Bildirilib ki, 25 il bundan əvvəl ümummilli liderimiz, görkəmli dövlət xadimi Heydər Əliyevin ətrafında sıx birləşən mütərəqqi insanların arzu və istəyi ilə yaradılan Yeni Azərbaycan Partiyası dahi şəxsiyyətin ideyalarının işığında əsl ümumxalq partiyası kimi özünü təsdiqləyib. Ölkəmizin bugünkü inkişafında partiyanın böyük xidmətləri olub. Əsası ulu öndər tərəfindən qoyulan siyasi xətt bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və müstəqil Azərbaycan inkişaf yolunda inamla irəliləyir. Gündən-günə gözəlləşən, yeniləşən Naxçıvan Muxtar Respublikası da məhz Heydər Əliyev ideyalarından güc alaraq özünün yeni inkişaf mərhələsini yaşayır. Babək rayonu da muxtar respublikamızda həyata keçirilən uğurlu siyasətin nəticəsində tərəqqiyə qovuşub.

Vurğulanıb ki, Babək rayonunda əhalinin rahat, firavan yaşayışı üçün həyata keçirilən tədbirlər dövlətimizin və partiyamızın amalını, məqsədini bütün aydınlığı ilə ifadə edir. Cari ildə rayon İcra Hakimiyyətinin inzibati binası, Nehrəmdə Heydər Parkı və üzümçülük təsərrüfatı, eləcə də Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhərinə birləşdirən yol və su-kanalizasiya sistemi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Bilik Günündə ucqar dağ kəndi olan Payızda 4 sosial obyekt və kənd yolu sakinlərin ixtiyarına verilib. Bütün bu uğurlar muxtar respublikamızda Heydər Əliyev quruculuq xəttinin ardıcıllıqla davam etdirilməsi nəticəsində əldə edilib.

Partiyanın rayon təşkilatının fəaliyyətindən danışan İsa Məmmədov deyib ki, bu ilin 9 ayı ərzində Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının 3 şura və 9 idarə heyəti yığıncağı keçirilib. Bundan başqa, tarixi və əlamətdar bayram günləri ilə əlaqədar müxtəlif tədbirlər təşkil olunub.

Rayon təşkilatının sədri bildirib ki, bu gün 55 ərazi ilk partiya təşkilatının, ümumilikdə, 6 min 848 nəfər üzvü var. Bunlardan 2 min 831-i qadın, 2 min 268 nəfəri isə gənclərdir. Hesabat dövrü ərzində partiya sıralarına 79 nəfər qəbul olunub ki, bunlardan 57 nəfəri gənc, 36-sı isə qadınlardır. Qarşıda duran vəzifələrdən də danışan İsa Məmmədov qeyd edib ki, nizam-intizama əməl olunması, yaradıcı və istedadlı gənclərin partiya sıralarına cəlb edilməsi istiqamətində fəaliyyət daha da gücləndirilməlidir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatı Gənclər Birliyinin sədri Elnur Abbasov, Təşkilatın Qadınlar Şurasının sədri Turan Məmmədli və Nehrəm ərazi ilk partiya təşkilatının sədri Tofiq Abutalıbov çıxış ediblər.

Şura iclasında müzakirə olunan məsələlərlə əlaqədar qərar qəbul olunub.

***Muxtar respublikanın bir sıra ünvanlarında mənzil tikintisi, mövcud binaların yenidən qurulması və ya əsaslı təmiri aparılır. Belə qayğıdan dağlıq bölgəmiz olan Şahbuz rayonuna da xeyli pay düşüb.***

## İki ictimai yaşayış binası əsaslı təmir edilir

Hazırda rayonun Badamlı qəsəbəsində mövcud olan iki ictimai yaşayış binasında əsaslı təmir işləri aparılır.

Məlumat üçün bildirək ki, həmin binalar sovet dönəmində qəsəbədə fəaliyyət göstərən "Badamlı" mineral sular zavodunda çalışan işçilər üçün inşa edilib. Sonrakı dövrlərdə həmin binalarda ancaq cari təmir işləri aparılıb. Bir aydır ki, Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Babək Rayon İdarəsinin inşaatçıları həmin binalarda əsaslı təmir işlərinə başlayıblar. Ötən müddət ərzində binaların dam örtükləri və qapı-pəncərələri yenilənib, mənzillərin balkonları isə yenidən qurulub. Hazırda binadaxili suvaq işləri həyata keçirilir, fasad hissələrdə beton üzləmə tədbirləri görülür. Kommunikasiya xətləri yenilənir.

İdarənin briqadiri Rasim Səfərovun sözlərinə görə, əsaslı təmir işlərini vaxtında başa çatdırmaq üçün inşaatçılara hərtərəfli şərait yaradılıb. Onlar bu şəraitdən səmərəli istifadə edir, gördükləri işin keyfiyyətli olmasına ciddi diqqət yetirirlər.

Əsaslı təmir işləri başa çatdırıldıqdan sonra ərazidə abadlıq işləri aparılacaq, gülkarlıqlar salınacaq.

**Xəbərlər şöbəsi**

### *14 oktyabr Beynəlxalq Standartlaşdırma Günüdür*

## Muxtar respublikada standartlaşdırma günün tələbləri səviyyəsindədir

***Beynəlxalq Standartlaşdırma Təşkilatının yarandığı gün – oktyabrın 14-ü hər il ölkəmizdə də "Beynəlxalq Standartlaşdırma Günü" kimi qeyd edilir.***

İqtisadiyyatın inkişafında standartlaşdırmanın rolu ildən-ilə artmaqdadır. Standartlaşdırmanın əsas məqsədləri istehsalın effektivliyinin artırılmasından, istehlakçılara çatdırılan məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsindən, insan sağlamlığının qorunması istiqamətində təhlükəsizlik normalarının daha da təkmilləşdirilməsindən, ətraf mühitin qorunmasından və ticarətdə texniki maneələrin aradan qaldırılmasından ibarətdir.

Ölkəmizdə standartlaşdırma sahəsinin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin siyasi hakimiyyətə ikinci dəfə qayıdışından sonra bu sahəyə diqqət və qayğı daha da artırılmış, hüquqi baza möhkəmləndirilmişdir. "Standartlaşdırma haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Patent haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" qanunlar və digər hüquqi sənədlər qəbul edilmişdir.

Standartlaşdırma sahəsində həyata keçirilən islahatlar hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Azərbaycan Respublikasında standartlaşdırmanın inkişaf etdirilməsi, beynəlxalq standartlara uyğunlaşma, müasir tələblərə cavab verən yeni milli standartların yaradılması və standartlar fondunun təkmilləşdirilməsi əsas məqsədlərdəndir. Ölkəmizdə keyfiyyət infrastrukturunun inkişafı və tənzimlənməsi standartlaşdırma, akkreditasiya, sertifikatlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi fəaliyyət istiqamətləri vasitəsilə həyata keçirilməkdədir.

Hazırda ölkəmizdə beynəlxalq standartların tətbiqi ilə bağlı mühüm proqramların qəbulu və icrası uğurla davam etdirilir. Milli standartların beynəlxalq standartlara uyğunlaşdırılması, müasir tələblərə uyğun yeni milli standartların qəbulu və tətbiqi prosesi təşviq olunur. Standartlaşdırmanın təkmilləşdirilməsi ölkə iqtisadiyyatının, sahibkarlığın inkişafında, istehlakçı hüquqlarının etibarlı qorunmasında, məhsul və xidmətlərin keyfiyyətinin yüksəldilməsində başlıca amildir.

Naxçıvan Muxtar Respublikasında da keyfiyyət infrastrukturunun inkişafı və tənzimlənməsi standartlaşdırma, akkreditasiya, sertifikatlaşdırma, metrologiya və uyğunluğun qiymətləndirilməsi üzrə fəaliyyət istiqamətləri vasitəsilə həyata keçirilir. Sakinlərin keyfiyyətli məhsul və xidmətlərə çıxış və seçim imkanlarının yaxşılaşdırılmasına dair verilmiş tapşırıqlara uyğun olaraq istehsal və idxal olunan məhsulların sertifikatlaşdırılması prosesi, patentlərin beynəlxalq mühafizəsi və istehlak bazarında keyfiyyətə nəzarət işi müasir standartlara uyğun aparılır. Bu sahədə ixtisaslı kadr potensialının



formalaşdırılması və maddi-texniki bazasının yaxşılaşdırılması da daim diqqət mərkəzindədir. Cari ilin avqust ayında Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi üçün müasir memarlıq üslubunda inşa olunmuş yeni inzibati binanın istifadəyə verilməsi bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Zirzəmi qatı ilə birlikdə 5 mərtəbədən ibarət olan binada 56 iş otağı, akt zalı, laboratoriya otaqları, reyestr və kadastrın saxlanması otağı, kitabxana, arxiv, təlim-treninq otağı, ölçmə vasitələrinin saxlanması və yoxlanma otaqları, standartlar üzrə informasiya otağı, standart və patent fondu yerləşir. Laboratoriyalarda elektrik, təbii qaz və su sayğaclarının yoxlanılması, eləcə də təzyiq, temperatur, çəki və həcm ölçmə vasitələrinin kalibrlənməsi üzrə çoxfunksiyalı avadanlıqlar quraşdırılmışdır.

Beynəlxalq normalar səviyyəsində standartların tətbiqinə geniş imkan yaradan amillərdən biri də muxtar respublika iqtisadiyyatının sürətli inkişafı, istehsal müəssisələrinin müasir standartlara cavab verən maddi-texniki baza ilə təchiz olunmasıdır. Muxtar respublikada istehsal olunan məhsulların yüksəkkeyfiyyətli, rəqabətqabiliyyətli olması, görülən işlərin və göstərilən xidmətlərin müasir standartlara cavab verməsi qarşıda duran əsas vəzifələrdəndir. Məqsəd istehlakçıların tələblərinə əsaslanan iqtisadiyyatın inkişafına nail olmaq, daxili, eləcə də xarici bazara keyfiyyətli məhsul çıxarılması prosesini sürətləndirməkdir. Bu isə standartlaşdırma sahəsində fəaliyyətin müasir tələblər əsasında qurulması ilə dəstəklənməkdədir.

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi keyfiyyətə nəzarət infrastrukturunun və bu sahədə texniki tənzimləmə sisteminin qabaqcıl tələblərə uyğunlaşdırılmasını, istehlakçılara təklif olunan məhsulların keyfiyyətinin müasir standartların tələblərinə cavab verməsini və əhalinin etibarlı ərzaq məhsulları ilə təmin olunmasını fəaliyyətində əsas istiqamət kimi götürür. Komitənin standartlar fondunda, ümumilikdə, 19 min 577 ədəd olmaqla, dövlət və dövlətlərarası standartlar, sahə standartı, təlimat, texniki şərt, təsnifat, metodik sənəd, rəhbəredici sənəd və beynəlxalq standartlar saxlanılmaqdadır.

Standartların təsərrüfat subyektlərinə çatdırılması, maarifləndirilməsi üzrə fəaliyyət çərçivəsində ilin əvvəlindən hüquqi və fiziki şəxslərlə 162 müqavilə bağlanmış və 49 müəssisədə istehsal olunan 80 məhsulun etiket layihəsi texniki normativ-hüquqi aktlara uyğun olaraq 3 dildə hazırlanmışdır.

Müəssisələrin gəlirlərindən, fəaliyyət sahəsindən, işinin həcmindən və bazardakı mövqeyindən asılı olmayaraq, fəaliyyətlərinin ən səmərəli yolu standartların tələblərinə uyğun idarəetmə sisteminin qurulmasıdır. Bu səbəbdən də muxtar respublikamızda əhalinin sağlamlığının və istehlakçıların hüquqlarının qorunması, ətraf mühitin mühafizəsi məqsədilə standartlaşdırma sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər bundan sonra da uğurla davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

Ordum varsa, yurdum var

# Sülhün, təhlükəsizliyin və tərəqqinin keşikçisi – Azərbaycan əsgəri

*Salam Vətən, Anam Vətən*

Vətən müqəddəsdir, Vətən ülvidir. Vətən ana südü qədər şirin, ana nəfəsi kimi doğmadır. Vətəni yaşadan, qoruyan da elə onun qəhrəman, igid övladlarıdır. Vətənin uca zirvələrində məskən salıb keşiyimizi çəkən oğullar hər birimizin sevgisinə layiqdirlər.

"Yerləşdikləri coğrafi mövqe şəhər mərkəzindən xeyli uzaqdadır. Amma həyata keçirdikləri böyük missiya ilə doğma Vətənimizin hər yerində sülhü, təhlükəsizliyi, əmin-amanlığı, tərəqqini təmin edən Azərbaycan Ordusu ilə xalqımız arasında bu gün qırılmaz vəhdət vardır. Möhkəm tellərlə bağlanan bu birlik Silahlı Qüvvələrin hər bir üzvünü inamlı xidmətə səsləyən başlıca amildir", – deyən məsul zabit Nəriman Nəcəfov lap uzaqdan seçilən boz təpələri, dağları nişan verərək qeyd edir ki, həmin zirvələrdə Azərbaycan əsgəri dayanıb. Özü də məğrur, qorxmaz, mübariz şəkildə.

Əlavə olaraq deyir ki, Babək rayonunun Gərməçataq kəndində yerləşən ön xətdəki bölmələrə sərt qayaların, zirvələrin sinəsi yarılaraq rahat yol çəkilib. Yol-nəqliyyat infrastrukturu həm kənd sakinlərinə, həm də hərbçilərimizə əvəzsiz töhfədir. Məsul zabit onu da qeyd edir ki, ön xətdə yerləşən bölmələrdə xidmət etmək hər bir əsgər, çavuş, gizir və zabit üçün böyük fəxrdir. Bu, olduqca çətin, amma şərəfli bir vəzifədir. Şəxsi heyət keşiyində dayandığı Vətən torpağını göz bəbəyi kimi qoruyur. Birazdan görüşüb xidməti fəaliyyətləri ilə tanış olacağımız əsgərlər də onlardandırlar.

*Yaradılan şərait nümunəvi xidmətin əsasını təşkil edir*

Bölmənin dayaq məntəqəsində yaradılan şəraitdən söz açan zabit Elnur Mustafayev deyir ki, çətinliklərə sinə gərməyi bacaran və doğma yurdunu anası kimi sevən bu oğullar Vətəni qorumağı özlərinə borc bilirlər. Ölkəmizin müxtəlif yerlərindən olan igidlər bir yumruq kimi birləşib, belə desək, doğmalaşıb, qardaşlaşıblar. "***Bir nəfər hamı üçün, hamı bir nəfər üçün***" şüarı əldə rəhbər tutulur. Digər bir tərəfdən isə dövlət-xalq-ordu birliyi şəxsi heyətin döyüş əzmini daha da artırır. Bayram və əlamətdar günlərdə kənd sakinlərinin və ictimaiyyətin nümayəndələri bölmələrə gəlir, onların xidmət və məişət şəraitləri ilə tanış olurlar. Bölmənin daxilində şəxsi heyətin məişət qayğıları lazımınca öz həllini tapıb. Hərbi qulluqçuların asudə vaxtlarının səmərəli təşkili üçün tədbirlər görülüb.



*Vətən bizə əmanətdir*

Bir qədər uzaqda dağları yarıb keçən ziqzaq xətti görürəm. Bu, mətin oğullarımızın düşmənə qarşı qurduğu möhkəm qala divarı – səngərlərdir. Bu səngərlərdən qarşıda görünən ərazilər də elə əzəli Azərbaycan torpağı olan Zəngəzurun əzəmətli dağ silsiləsidir.

Bölmənin zabiti Xəyal Mustafayev bizi qarşılayır. Əyinlərində zirehli gödəkcə, başlarında dəbilqə, yaraqlı-yasaqlı bir neçə əsgər də sırada dayanıb. Onlar mövqelərdəki silahdaşlarını əvəz etməyə gedirlər. Döyüşçülərimiz dayandıqları yerdən vəziyyətə tam nəzarət edirlər. Sədlər və səngərlər isə istehkam nöqteyi-nəzərdən olduqca yaxşı hazırlanıb. Hər səngər bir qalaya çevrilib. Bu qalanın müdafiəçiləri sayıqlıqla torpaqlarımızın keşiyini çəkirlər.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun bölmələrində xidmətin nümunəvi təşkil olunması üçün yaradılan şərait də buna imkan verir.





Hərbi hissənin zabiti Namiq İsgəndərov bir neçə ildir ki, ordu sıralarında xidmət edir. Təcrübəli zabit qeyd edir ki, ötən əsrin sonlarında ulu öndər Heydər Əliyevin məhz Naxçıvanda əsasını qoyduğu ordu quruculuğu prosesi bu gün uğurla davam etdirilir. Bölmələrin müasir atıcı silahlarla təminatı diqqət mərkəzində saxlanılır, şəxsi heyətin məişət şəraiti yaxşılaşdırılır, maddi-texniki təchizat möhkəmləndirilir. Xidmət etdiyim bölmə barəsində də eyni fikirləri demək olar. Fəxr edirəm ki, ulu öndər Heydər Əliyevin doğulub boya-başa çatdığı Naxçıvanda xidmət edirəm. Muxtar respublikanın düşmən dövlətlə həmsərhəd olması onun müdafiə əhəmiyyətini daha da artırır. Biz də fasiləsiz olaraq ön xətdə ayıq-sayıq xidməti təşkil edirik. Əsgərlərimiz döyüş növbəsini məsuliyyətlə aparırlar. Təlim görmüş əsgərlərimiz silahlardan istifadə qaydasını mükəmməl bilir, tapşırıqları vaxtında yerinə yetirirlər. Xidmətimiz yalnız bir məqsədə – şəxsi heyətin döyüş hazırlığının artırılmasına yönəlib.

*Hazırlıq yüksək olanda…*

Təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyət müntəzəm olaraq dərs və məşğələlər keçir. Minaatanın taktiki-texniki xüsusiyyətlərini əsgərlərə çatdıran zabit Samir Baqiri qeyd edir ki, bu dərslər əsgərlərin daha hazırlıqlı və çevik olmalarına gətirib çıxarır. Bizim üzərimizə düşən əsas vəzifələrdən biri də ordu sıralarına ilk addımlarını atan gənc əsgərlərə hərbi bilik və döyüş vərdişlərini öyrətməkdir. Çalışırıq ki, məşğələnin hər dəqiqəsindən səmərəli istifadə edərək heyət üzvlərinə minaatan qurğusunun sirlərini daha dərindən öyrədək. Sırada dayanan mərd oğullar bir müddət əvvəl həqiqi hərbi xidmətə çağırılıblar. Amma buna baxmayaraq, qısa müddətdə xeyli bilik və döyüş vərdişinə yiyələniblər.

Qusar rayonundan olan Teymur İlyasov manqanın bacarıqlı əsgərlərindəndir. Bir neçə ay bundan öncə xidmətə başlayan əsgər deyir ki, bu gün tədris ocaqlarında gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi diqqət mərkəzində saxlanılır, tez-tez hərbi idman oyunları təşkil edilir. Bir sözlə, biz gənclərin çağırışaqədərki hərbi hazırlığı sınağa çəkilir. İndi isə ön xətdə döyüş növbətçiliyi aparıram. Bir vətəndaş olaraq dövlətim və xalqım qarşısındakı müqəddəs borcumu yerinə yetirirəm. Döyüş hazırlığı yüksək səviyyədə olan əsgər yoldaşlarım hər an, hər dəqiqə düşmən təxribatının qarşısını almağa qadirdir. Düşmən daim hiss edir ki, onun qarşısında qüdrətli, güclü bir ordunun yüksək döyüş hazırlığına malik olan şəxsi heyəti dayanıb. Biz qoynunda göz açdığımız Vətən torpağına ürəkdən bağlıyıq.

Sərxan Bayramov isə Babək rayon Nehrəm kəndindən həqiqi hərbi xidmətə çağırılıb.Onun dediklərindən:

– Azərbaycan xalqının zəngin hərbi ənənələri var. Bu ənənənin davamçıları aprel döyüşlərində düşmənə öz güclərini göstərdilər. Bunu düşmənin özü də etiraf edir. İşğalçı dövlətin ordusundakı hərbi intizamsızlıq, məişət şəraitinin olduqca aşağı səviyyədə olması onları məğlubiyyətə aparan əsas səbəblərdən oldu. Həmin döyüşlərdə düşməndən azad olunmuş torpaqlarda bu gün geniş abadlıq və quruculuq işləri aparılır. Bu, böyük Qayıdışın da xəbərçisidir.

Belə bir deyim vardır ki, səngərlər qorxaqları sevmir. Çünki bu yolda əzm və rəşadətlə xidmət aparmalı, üzərinə düşən vəzifəni layiqincə icra etməlisən. Bir sözlə, Vətən sənə güvənir, Azərbaycan əsgəri! Siz hünərinizlə bu yurdun tarixinə yeni qəhrəmanlıq səhifələrini yazırsınız.

**Muxtar RZAZADƏ**
***"Şərqin səhəri" qəzetinin redaktoru***

# Yeni informasiya texnologiyaları dövründə poçtun rolu

*Naxçıvanda poçt-rabitə sistemi özünəməxsus inkişaf yolu keçib. Belə ki, ilk dəfə 1864-cü ildə Tiflis-Naxçıvan teleqraf xətti çəkilib. 1918-ci ildə Naxçıvan şəhərində ilk poçt kontoru açılıb, 1927-ci ildə isə muxtar respublikanın Ordubad, Culfa, Şərur şəhərlərində poçt-teleqraf şöbələri və Naxçıvan şəhərində Poçt-Teleqraf Agentliyi yaradılıb. 1996-cı ildən başlayaraq Naxçıvanda poçt xidmətlərinin keyfiyyəti mərhələ-mərhələ yüksəldilib, bu sahənin texniki imkanları genişləndirilərək böyük uğurlara imza atılıb.*



Bəs bu gün muxtar respublikamızda poçt-rabitə sistemi hansı inkişaf mərhələsini yaşayır və bu sahədə nə kimi işlər görülür? Elə bu sualla "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru İlqar Sadiqova müraciət etdik. O bildirdi ki, poçt rabitə sisteminin ən geniş yayılmış sahələrindən biri olaraq, gündəlik istifadə edilən kütləvi əlaqə vasitəsidir. Poçt rabitəsi dövlətçiliyin möhkəmlənməsində, iqtisadiyyatın inkişafında, ictimai-siyasi proseslərin tənzimlənməsində, xalq təsərrüfatının, biznes əlaqələrinin genişlənməsində, əhalinin maariflənməsində mühüm və əvəzedilməz rola malikdir. Yaşadığımız müasir dövrdə texnikanın, xüsusilə elektronikanın, radionun, televiziyanın, internet xidmətlərinin yüksək inkişaf tempi poçta olan marağı azaltmayıb, əksinə poçt xidmətinin inkişafına müəyyən qədər müsbət təsir göstərib. İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, əhali arasında poçt xidmətlərinin növləri, o cümlədən bağlamaların, məktubların, pul baratlarının mübadiləsi gündən-günə artmaqda davam edir. İnsanlar poçt vasitəsilə əlaqələrin inkişafına daha çox üstünlük verirlər, çünki rabitənin bu klassik xidmət növü keçmiş zamanlardan bəri istifadə olunan ən inanılmış rabitə vasitəsi olaraq qalmaqdadır.

İlqar Sadiqov rəhbərlik etdiyi müəssisənin fəaliyyəti, eləcə də gördüyü işlər haqqında danışaraq qeyd etdi ki, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" 2013-cü il 30 iyul tarixli Sərəncamı əsasında yaradılıb. Həmin sərəncamın icrası nəticəsində bu sahədə görüləcək işlərin miqyası daha da genişləndirilib. Regionda rabitə sahəsində gedən sürətli inkişaf, fiber-optik xətlərinin çəkilməsi, yüksəksürətli kompüter şəbəkəsinin yaradılması poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulmasına şərait yaradır. Əhaliyə göstərilən xidmətlərin yüksək səviyyədə təşkili məqsədilə həyata keçirilən tikinti-quruculuq işləri nəticəsində, demək olar ki, bütün poçt bölmələri yeni tikilən binalara köçürülüb, keyfiyyətli xidmət üçün lazımi şərait yaradılıb. Hazırda regionda 1 mərkəzi poçt şöbəsi, 7 rayon poçt filialı və 163 poçt bölməsi fəaliyyət göstərir. 159 poçt bölməsi Məlumat Hesablama Mərkəzi şəbəkəsinə qoşulub. Poçt məntəqələrində danışıq borclarının, elektrik, qaz və sudan istifadə haqlarının, bələdiyyə ödənişlərinin, Dövlət Yol Polisi cərimələrinin və sairin qəbulu həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin tərkibində yaradılan yeni "Naxtel" 4G mobil operatoru ilə müqavilə bağlanılıb, nömrələrin və danışıq kartlarının satışı poçt şöbə və bölmələri tərəfindən yerinə yetirilir. Hökumət Ödəniş Portalının şəbəkəsinə qoşulmaqla Azərbaycan Respublikasının 17 təşkilatının ödənişlərini həyata keçirmək imkanı əldə edilib. Poçt məntəqələrində nağdsız ödənişlərin təşkili üçün 155 ədəd POS-terminal qoyulub.

Texnologiyanın inkişaf tempi elektron imzadan istifadəyə də tələbatı artırıb. Çünki bu üsul vaxta qənaət etməyə imkan yaratdığı kimi istifadəçiyə harada olmasından asılı olmayaraq, istənilən sənədi imzalayaraq lazımi məsafəyə tam təhlükəsiz qaydada və vaxtında göndərmək imkanı da verir. Bundan başqa, fiziki və ya hüquqi şəxslər hər hansı sayt üzərindən müəyyən elektron xidmətlərdən yararlanmaq üçün də elektron imzadan istifadə edə bilirlər. İnsanların bu xidmətə olan tələbatını ödəmək məqsədilə elektron imzanın mərkəzi poçt şöbəsində verilməsi təşkil edilib. Bu məqsədlə Naxçıvan şəhərində server, kompüterlər, kart və pin kodların çapı üçün printerlər qoyulub, əməliyyat zalında ərizələrin qəbulu üçün bölmə yaradılıb.

İlqar Sadiqov onu da bildirdi ki, Naxçıvan şəhərində qaz və elektrik sayğaclarının daha təkmil olan smartkartla yüklənən sayğaclarla dəyişdirilməsinə başlanılıb. Poçt bölmələrində həmin kartların yüklənməsi işi təşkil olunub. Bunun üçün Naxçıvan Şəhər Rabitə İdarəsinin texniki binasında server qoyulub, şəbəkəyə qoşulması təmin edilib. Naxçıvan şəhərində 10 poçt bölməsində yeni kompüter, kartoxuyucu qoyulub, elektrik və qaz təsərrüfatı ilə məşğul olan idarələrdəki kompüterlər isə həmin şəbəkəyə qoşulub. Həmin serverlərə "Naxçıvanpoçt" MMC-nin mühəndisləri tərəfindən xidmət edilir, fasiləsiz işləməsi üçün vaxtında lazımi tədbirlər görülür. 2017-ci ilin 9 ayı ərzində 3 milyon 758 min 192 manatlıq smart sayğac kartı yüklənib. Həmçinin yeni texnologiyaların tətbiqi telefon və kommunal ödənişlərin internet üzərindən də həyata keçirilməsinə şərait yaradır və belə istifadəçilərin sayı ilbəil artır.

2016-cı ilin dekabr ayından "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində "İtirilmiş Əşyaların Sahibinə Çatdırılması Xidməti" fəaliyyətə başlayıb. Bu xidmət heç bir mükafat yaxud rüsum tələb edilmədən tam humanitar məqsədlə yaradılıb. Vətəndaşlar "Naxçıvanpoçt" MMC-nin *www.naxcivanpoct.az* internet saytında yerləşdirilmiş "İtirilən əşyaların qeydiyyatı" bölməsində fərdi qaydada tapdıqları, yaxud axtardıqları əşyalar haqqında məlumatı yerləşdirə bilərlər.

"Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumatlara əsaslanaraq deyə bilərik ki, bu gün bütün sahələrdə olduğu kimi, poçt sahəsi də dövlətimiz tərəfindən yüksək diqqət və qayğı ilə əhatə olunub. Bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, hər il yeni rabitə evlərinin istifadəyə verilməsi həm poçt işçilərinin iş və maddi təminatının yüksəldilməsinə, həm də əhalinin müasir poçt xidmətlərindən istifadə etməsinə şərait yaradır.

Görülən işləri nəzərə alaraq əminliklə deyə bilərik ki, cəmiyyət bu sahəyə göstərilən diqqət və qayğıdan bəhrələnərək bundan sonra da səylə çalışacaq, yaradılan şəraitdən səmərəli istifadə edərək muxtar respublika sakinlərinə yeni və daha keyfiyyətli poçt xidmətləri təqdim edəcəklər.

**Gülcamal TAHİROVA**

***Müasir Azərbaycan poeziyasının qüdrətli ədəbiyyat nəhəngi, Xalq şairi Məmməd Araz zəngin poetik irsi, fəlsəfi lirikası, vətəndaşlıq mövqeyi və əqidə bütövlüyü ilə seçilir. Müxtəlif janrlı əsərlərin, şeirlərin, poemaların müəllifi olan Məmməd Arazın zəngin yaradıcılığı olduqca rəngarəngdir. Şairin yaradıcılığında mövzu müxtəlifliyi var – vətənpərvərlik, sevgi, insanlıq, dostluq, lirika, insani hisslər, ictimai-siyasi məzmun.***

***Məmməd Arazın doğum günü ilə əlaqədar onun çoxcəhətli, özünü və dünyanı dərk poeziyasına, ölməz yaradıcılığına baş vurarkən Naxçıvan Dövlət Universitetinin Jurnalistika və dünya ədəbiyyatı kafedrasının dosenti İman Cəfərov bizə yol yoldaşı oldu.***



Rəssam:Həbibə Allahverdiyeva

# Mənim könlüm bu torpağı vəsf eyləyərək, Azərbaycan dünyasından baxar dünyaya

## *Xalq şairi Məmməd Arazın ədəbiyyat və əbədiyyət dünyasına səyahət*

***– İman müəllim, şairin poeziyasını bütünlüklə "Vətənə məhəbbət dastanı" adlandırmaq olar. Məmməd Arazın Vətən sevgisinin səbəbi onun xalq yaradıcılığına bağlılığından, yoxsa xalqın şairi olmaq missiyasından irəli gəlir?***

– Fikrimcə, zaman gələcək, Azərbaycan xalqı yeni bir dastanını yaradacaq və bu dastan Məmməd Arazın adı ilə bağlı olacaq. Bu dastanda məhəbbət lirikası öz yerini tutsa da belə, mənim obrazlı ifadəmə görə dastanın adı "Məmməd Araz və Vətən" olacaq. Məmməd Araz poeziyasında məhəbbət aparıcı yer tutur. Amma o, bizim orta əsrlər şairləri kimi məhəbbəti bir baxış bucağından işıqlandırmırdı. Məmməd Araz poeziyasındakı məhəbbəti Füzuli, Nəsimi kimi göylərdə axtarmırdı. Bu məhəbbətin özəyi od məhəbbəti, məmləkət, yurd məhəbbəti, bizim gündəlik həyatımızda mövcud olan, real məhəbbətdir. Məmməd Arazın məhəbbət lirikası özünəməxsusdur, tamamilə yenidir, bizim üçün yeni cığırlar açır.

***– Şairin yaradıcılığına nəzər salanda onun poetik ənənə, yaradıcı şəkildə faydalanma baxımından Məhəmməd Füzuli və Mirzə Ələkbər Sabirdən bəhrələndiyini aydın görə bilərik.***

– Məhəmməd Füzuli yazır ki, mən nədən yazıramsa, onun aşiqiyəm. Güldən, çiçəkdən, torpaqdan, hətta müharibələrdən yazıramsa da, orda həlak olanların aşiqiyəm. Bizim bu məhəbbəti təkcə Leyli-Məcnun məhəbbəti kimi mənalandırmağımız düzgün olmazdı. M.Füzuli deyib ki, mən aşiqəm sözüm hər zaman aşiqanədir. Məmməd Araz da Füzulinin bu aşiqliyini qəbul edir. Siz doğru olaraq Sabirin adını da qeyd etdiniz. Sabirdə məhəbbət lirikası Füzuli qədər deyil, ancaq o da tənqid etdiyi tipləri sevə-sevə təsvir edirdi. Cəmiyyətin eybəcərliklərindən yazsa da, o da gözəllik istəyirdi. Bu mənada, Məmməd Araz da nədən yazıbsa, o Füzuli eşqi ilə ağaca, çiçəyə, daşa, Azərbaycan adlı məmləkətə məhəbbəti ifadə edir.

***– Məmməd Araz kitablarından birinə yazdığı müqəddimədə deyir: "Əsl tərcümeyi-hal şairin şeirləridir. Şair çox halda öz yazılarının baş qəhrəmanı ola bilir".***

***Məni şeirimdə gəz bir insan kimi,***
***Qəlbimdə nə varsa, onu demişəm.***
***Anadan-bacıdan gizlətdiyimi***
***Kağızdan, qələmdən gizlətməmişəm.***

***İman müəllim, şair, yazıçı həqiqətənmi yaşadıqlarını, yoxsa yaşamaq istədiklərini, arzularını qələmə alır?***

– Bəli, Məmməd Arazın şeirləri sanki onun tərcümeyi-halıdır. Onun şeirlərində məmləkət və vətəndaş ayrılmazdır. O məmləkət öz təbiəti ilə, ictimai həyatı ilə, dağıyla, daşıyla, fauna və florasıyla belə, bütöv haldadır, vəhdətdədir. Bu səbəbdən biz bəzən Məmməd Araz şeirlərində təbiət və insan sərhədini ayırmaqda çətinlik çəkirik. Biz bu gün şairin "Azərbaycan" şeirində Azərbaycan təbiəti və Azərbaycan vətəndaşını ayıra bilmiriksə, bu, fikrimcə Məmməd Arazın şairlik istedadı ilə yanaşı, birinci baza ixtisasından, coğrafiya təhsilindən də irəli gəlir.

Mən qeyd edərdim ki, Məmməd Araz öz şeirlərində hətta özündən sonrakı tərcümeyi-halını da yazıb:

*Baş daşımı kim öpəcək son dəfə?*
*Bir sən, bir də vətən külləkləri.*
*Məzarıma gül səpəcək son dəfə,*
*Bir sən, bir də vətən külləkləri.*

Əslində, burada "bir sən" ifadəsi bütöv Azərbaycan, bütövlükdə, Məmməd Araz sevərlərdir. Şair burada böyük təbiət təsviri, peyzaj yaradır.

***– Məmməd Araz üçün Vətən anlayışı nə deməkdir?***

– Məmməd Araz üçün Vətən anlayışı böyükdür. "Vətən haradan başlanır?" – sualına Məmməd Araz bu cür cavab verir: "Ata ocağı və ata ocaqlarının daima yandığı, alovlandığı yerdən". O, özü müəyyən yaş dövründən sonra doğulub boya-başa çatdığı Şahbuz rayonunun Nursu kəndində yaşamasa da, daim onun şeirlərində bir Nursu obrazı var. Bu obraz ata yurdundan başlanır. Bu da təsadüfi deyil ki, Məmməd Arazın poemaları içərisində son dərəcə doğma olanı "Atamın kitabı"dır. Bu, Məmməd Arazın o ocağa mənən bağlılığını ifadə edir. Bu, bizim hər birimizə ata ocağına bağlı olmağımızın vacibliyini bir daha yada salır.

***– Şair şeirlərindən birində özünü milli şeirimizin "daş əsgəri" adlandırır. Vətəndaşlıq missiyası daşımaq Vətənin daşı olmaqdanmı keçir?***

– "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı" Məmməd Arazın yaradıcılıq düsturudur. Bu yazılıb və dəyişilməyən düsturdur.

*Azərbaycan qayalarda bitən bir çiçək,*
*Azərbaycan çiçəklərin içində qaya.*

Yenə dağlar, yenə məmləkət, yenə daşlar, amma bunların hamısı çiçək içərisindədir. Məmməd Araz yaradıcılığının proloqu, ön sözü bu iki misradır. Şairin dünyasının başlanğıcı, baxış bucağı, nüvəsi, Azərbaycan adlı məmləkətdir. Şair fəlsəfi mənada deyirdi ki, dünya daşdan yaranıb elə daş olaraq da qalacaq. Bu mənada, dünyanın əbədiliyi, ölməzliyi ifadəsinə də gəlirik. Məmməd Araz poeziyası, böyük mənada, insanlığa xidmət edən yaradıcılıq kimi diqqətimizi cəlb edir.

***– "Ürəyimsiz kəlmə kəsən deyiləm", – deyən şair yaradıcılığı boyu bu ideyaya sadiq qalmağı bacara bilibmi?***

– Məmməd Araz bütün yaradıcılığı boyu bu ideya ilə yaşayıb. Biz Məmməd Araz şeirini görməkdən və dərk etməkdən ötrü Məmməd Araz səviyyəsinə qalxmalıyıq. Şair şeirləri ilə azərbaycanlı deyilən bir vətəndaşı Azərbaycan adlı bir ideya ətrafında birləşməyə çağırır. Məmməd Araz şeiri nədən yazmağından asılı olmayaraq, bizə Azərbaycan sevgisi, Vətən sevgisi təlqin edir. O, doğrudan da, bu ideyaya sadiq qalaraq 1988-1990-cı illərdə öz şeirləri ilə meydan hərəkatında milyonlarla insanı Azərbaycan uğrunda mübarizəyə səsləyə bildi. Bu, Məmməd Arazın, sözün həqiqi mənasında, Azərbaycan milli azadlıq hərəkatına bir ordu qədər xidmət etməsi demək idi. Məmməd Araz poeziyamıza qeyrətlilik, millilik, Azərbaycançılıq bəxş edib. O, şeirləri ilə Azərbaycançılıq odu ilə yanan ocağa dönür, qəlblərimizi isidən sənət məbədinə çevrilir. Bu mənada, Məmməd Araz şeirləri, sözün həqiqi mənasında, ürəkdən öyrənilməyə və dönə-dönə üz tutulmağa layiq sənət nümunələri kimi diqqətimizi çəkir.

***– Şairimiz deyir ki, mərd ölsə də, mərdlik ölməz. Siz bu fikri necə dəyərləndirərdiniz?***

– Təbii ki, bu, bizim mənəvi dəyərlərimizdir. Bizim milli və mənəvi dəyərlərimiz daim yaşayacaq. Məmməd Araz deyir ki, mərd cismən ölür, amma mərdlik ölmür. Bizim mərd oğullarımız Azərbaycan adlı məmləkətin uğrunda canlarından keçməyə hazırdırlar. Bu mənada, mərdlik ölmür və ölməyəcək də.

*Hələ yeriyirəm qəlbimlə qoşa,*
*Hələ çoxlarına örnəyəm, bala!*
*Qoca büdrəyəndə büdrəyən qoca,*
*Körpə ağlayanda körpəyəm, bala!*

Bu, əslində, sırf azərbaycanlı obrazıdır. Məmməd Arazın yaratdığı bu azərbaycanlı obrazı bütün mənəvi dəyərləri özündə təcəssüm etdirir.

***– İman müəllim, sağlığında əbədiyyət qazanan şair "Dünya sənin, dünya mənim..." şeirində dünyanın faniliyindən niyə gileylənirdi?***

– Biz bəzən poeziyamızda dünyanın vəfasızlığından söhbət açırıq. Amma bu şeirdə başqa fəlsəfi yöndən baxış bucağı var. Əslində, vəfasız olan dünya yox, insanlardır. Dünya elə qalır, bizdən əvvəl də var idi, bizimlə də var, bizdən sonra da olacaq. Məmməd Araz bu şeiri ilə insanı dünya haqqında yenidən düşünməyə, dünyaya niyə gəldiyi haqda sual verməyə səsləyir. İnsan dünyaya xalqına, Vətəninə xidmət etməkdən ötrü gəlib. Məmməd Araz müasir gəncliyə üzünü tutaraq deyirdi ki, dünyaya, insanlığa yararlı olmaq lazımdır. Yoxsa sən dünyaya yox, dünya sənə gülər. Dünya əbədidir, insansa bir ömür yaşayır, onun əsas missiyası insanlığa xidmətdən ibarətdir. Bu baxımdan biz Məmməd Araz yaradıcılığına mənən, ruhən, qəlbən borcluyuq.

***– İman müəllim, biz Məmməd Arazın təkcə şairliyindən danışmaqla onun yaradıcılığını kölgədə qoymuruq ki?***

– Məmməd Araz yalnız Azərbaycan ədəbiyyatında yox, Azərbaycan publisistikasında, tərcümə sənətində, Azərbaycan jurnalistika tarixində əsas yer tutur. Amma hələlik Məmməd Araz və Azərbaycan jurnalistikası o qədər də geniş öyrənilməmişdir. Halbuki onun jurnalistika fəaliyyəti şairliyindən heç də geri qalmır və öyrənilməyə, tədqiq edilməyə ehtiyacı vardır. O, "Ulduz" jurnalının məsul katibi, "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktor müavini, Azərbaycan Dövlət Nəşriyyatının baş redaktor müavini və 1974-cü ildən ömrünün sonuna (2004-cü ilə qədər) "Azərbaycan təbiəti" jurnalının baş redaktoru olub.

Məmməd Arazın publisistikası şair qələmindən çıxmış bədii publisistikadır. Bədii tərcümə sahəsində də Məmməd Araz uğurla fəaliyyət göstərmişdir. Buna görədir ki, həmin tərcümələrin böyük əksəriyyəti onun şair ürəyindən qopan öz şeirləri kimi səmimi və poetikdir. Məmməd Araz qəlbimizdə yaşayır, bizim müasirimizdir, bizdən sonra gələn nəsillərlə də yaşayacaq, onların da müasiri olacaq.

Xalqımızın və ədəbiyyatımızın böyük qayğıkeşi, görkəmli dövlət xadimi Heydər Əliyev Xalq şairi Məmməd Arazın sənətinə və şəxsiyyətinə böyük ehtiram bəsləmişdir. Məmməd Arazın anadan olmasının 60 illik yubileyinin ölkəmizdə dövlət səviyyəsində geniş qeyd edilməsi, şairin "İstiqlal" ordeni ilə təltif olunması, Almaniyaya müalicəyə göndərilməsi Məmməd Arazın bədii yaradıcılığına dövlət səviyyəsində verilən qiymətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqındakı 2013-cü il 27 sentyabr tarixli Sərəncamı görkəmli sənətkarın böyük sənətinə dövlət səviyyəsində göstərilən yüksək diqqət və qayğını aydın şəkildə ifadə edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Xalq şairi Məmməd Arazın 80 illiyinin qeyd olunması və böyük söz ustadının dünyaya gəldiyi Şahbuz rayonunun Nursu kəndində ev-muzeyinin yaradılması haqqındakı sərəncamları, keçirilən yubiley tədbirləri qədim diyarda görkəmli sənətkarın yaradıcılığına verilən qiymətin ən bariz nümunəsidir. Xalq şairi Məmməd Arazın kamil, müdrik, mübariz sənəti yaşayır, nəsillər ötdükcə yaşayacaq.

***– Müsahibə üçün çox sağ olun.***

**Səadət ƏLİYEVA**

# *"Dədə Qorqud yurdu – Naxçıvan"* tarixi və etnoqrafik atlası nəşrə hazırlanır

***AMEA-nın Naxçıvan Bölməsi yarandığı vaxtdan bu günə kimi Naxçıvan Muxtar Respublikasının tarixini, coğrafiyasını, mədəniyyətini özündə əks etdirən bir çox fundamental kitabların nəşrinə nail olmuşdur.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi, diqqət və qayğısı ilə nəşr edilən ikicildlik "Naxçıvan Ensiklopediyası", Azərbaycan və ingilis dillərində işıq üzü görən "Naxçıvan abidələri ensiklopediyası", üçcildlik "Naxçıvan tarixi" çoxcildliyi, "Naxçıvanın tarixi atlası", üçcildlik "Naxçıvan folkloru antologiyası", "Naxçıvan teatrının salnaməsi", ikicildlik "Naxçıvan Muxtar Respublikasının "Qırmızı Kitabı", "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri" və digərləri bu qəbildən olan nəşrlərdir. Bu günlərdə isə daha yeni bir nəşr – "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlası elmi ictimaiyyətə təqdim olunacaqdır.

Məlumdur ki, oğuz türklərinin dastanı olan "Kitabi-Dədə Qorqud"un dil xüsusiyyətləri, cərəyan edən hadisələrin coğrafi məkanı baxımından daha çox Azərbaycanla bağlı olması artıq öz elmi təsdiqini tapıb. Ümummilli liderimiz Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi ilə əlaqədar keçirilən Dövlət Komissiyasının iclasında demişdir: ***"Kitabi-Dədə Qorqud" dastanı bütün Türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir".***

Azərbaycan Respublikası Prezidentinin "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 2015-ci il 20 fevral tarixli Sərəncamı da mahiyyət etibarilə bu böyük Azərbaycançılıq abidəsini dünya mədəniyyəti hadisəsi səviyyəsində dəyərləndirən dövlət siyasətinin məntiqi davamıdır.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 25 iyul tarixli Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı" təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumu keçirilmiş, professor Səfərəli Babayevin "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri" monoqrafiyası yenidən nəşr olunmuş, "Kitabi-Dədə Qorqud" və Naxçıvan" televiziya filmi hazırlanmışdır. Eyni zamanda "Kitabi-Dədə Qorqud" və onun Naxçıvanla bağlılığı" mövzusunda açıq dərslər təşkil edilmiş, dəyirmi masalar keçirilmişdir. 2016-cı ilin martında AMEA Naxçıvan Bölməsində yaradılmış işçi qrupu ona həvalə olunmuş tapşırıqları yerinə yetirərək Azərbaycan, rus və ingilis dillərində "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi və etnoqrafik atlasının hazırlanmasına başlamışdır.

"Dədə Qorqud yurdu – Naxçıvan" tarixi-coğrafi və etnoqrafik atlasının hazırlanması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 10 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Dədə Qorqudun alman alimi Fridrix fon Dits tərəfindən ilk tərcüməsi, nəşri və dünya elm aləminə tanıdılmasının 200 illiyinə dair fəaliyyət proqramı"nın 40-cı maddəsinə əsasən qərara alınmışdır.

"Kitabi-Dədə Qorqud"la bağlı yeni atlasın redaksiya heyəti akademik İsmayıl Hacıyev (məsul redaktor), AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli, Əbülfəz Quliyev, Qədir Qədirzadə və Vəli Baxşəliyevdir.

Tarix üzrə fəlsəfə doktoru Asəf Orucov, filologiya üzrə fəlsəfə doktorları Firudin Rzayev, Əkrəm Hüseynzadə və Rəşad Zülfüqarov, coğrafiya üzrə fəlsəfə doktoru Nazim Bababəyli, Cəfər Əliyev, Fəxrəddin Eylazov da yeni atlasın tərtibçiləri sırasındadırlar.

"Kitabi-Dədə Qorqud" dastanı öz müasirliyini, aktuallığını günümüzədək qoruyub saxlamışdır. Bu, hər şeydən əvvəl, xalqımızın özünəməxsus etnik xüsusiyyətlərinin hər bir boyda qabarıq şəkildə əks olunması ilə bağlıdır.

"Dədə Qorqud yurdu – Naxçıvan" tarixi və etnoqrafik atlasının işçi qrupunun üzvlərindən AMEA Naxçıvan Bölməsinin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent Əkrəm Hüseynzadə və AMEA Naxçıvan Bölməsinin Elmi təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Zülfüqarovla söhbət zamanı öyrəndik ki, atlas üzərində iş aparılarkən daha çox oğuzların təsərrüfat həyatı, maddi-mədəniyyəti və bunların Naxçıvandakı izləri, dastanda işlədilən geyim və bəzək adları, oğuzların yemək və içki növləri, dastanda adıçəkilən sənətlər və xalq nəqliyyat vasitələri, əkinçilik və maldarlıq sahələri, oğuz elinin idarəçilik sistemi, ailənin idarə olunması və dini inanclar kimi məsələlərə diqqət yetirilmişdir.

Onu da qeyd edək ki, "Dədə Qorqud yurdu – Naxçıvan" tarixi və etnoqrafik atlasında "Kitabi-Dədə Qorqud"da adıçəkilən Naxçıvan şəhəri ilə bağlı 7, Şərur rayonu ilə bağlı 66, Babək rayonu ilə bağlı 36, Ordubad rayonu ilə bağlı 45, Culfa rayonu ilə bağlı 22, Kəngərli rayonu ilə bağlı 11, Şahbuz rayonu ilə bağlı 23, Sədərək rayonu ilə bağlı 3 yer adı də qeyd olunmuşdur.

**✍ Rəmiyyə ƏKBƏROVA**

*Tarixdən bu günə*

# Dünyanın ən qədim duz mədəni Naxçıvandadır

*Naxçıvan Muxtar Respublikası ərazisində aparılan tədqiqatlar zamanı müxtəlif dövrlərə aid tarix və mədəniyyət abidələri aşkar olunmuşdur. Abidələrimizin tədqiqinə və qorunmasına dövlət qayğısının artırılmasının nəticəsidir ki, hazırda muxtar respublika ərazisində onlarla tarix və mədəniyyət abidəsi bərpa edilərək milli və mənəvi sərvətimizə çevrilmişdir. Tarixi abidələrimizdən aşkar olunan maddi-mədəniyyət nümunələri muzeylərimizin qiymətli eksponatları kimi diqqəti cəlb edir. "Naxçıvanda Duz Muzeyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 12 sentyabr tarixli Sərəncam imzalaması maddi və mənəvi sərvətlərimizin qorunub saxlanılması sahəsində növbəti mühüm addımlardan biridir. Sərəncamda deyilir:* ***"Bu ərazidə Eneolit dövründən başlayaraq duz mədənçiliyinin əsası qoyulmuşdur. Bu isə 5 min illik Naxçıvan şəhər mədəniyyətinin formalaşmasına güclü təsir göstərmişdir".***

Duzdağ Naxçıvan şəhərindən 10 kilometr şimal-qərbdə, qədim İpək Yolunun yaxınlığında, Araz çayının sol sahilində yerləşir. Duzdağ yatağı yuxarı miosen və dördüncü dövrün çöküntülərindən ibarətdir. Yaxın Şərqdə zəngin duz yataqları Türkiyədə Tuzluca, şimal-qərbi İranda Xoy şəhəri yaxınlığında yerləşir. Bundan başqa, Ərzurum və Van yaxınlığında da duz təzahürlərinə rast gəlinir. Xoy yaxınlığındakı duz yatağında qədim mədən izləri vardır. Lakin onların əksəriyyəti ya Əhəmənilər, ya da Osmanlılar dövründə istismar edilmişdir. Bu yataqlar arasında Naxçıvan yaxınlığındakı Duzdağ həm duz laylarının, həm də aşkar olunan arxeoloji materialların zənginliyinə görə digərlərindən fərqlənir.

Duzdağda ilk əmək alətləri XIX əsrin 70-ci illərində aşkar olunmuşdur. Dağ-mədən mühəndisi Fon Koşkul qədim duz mədənlərindən daş çəkiclər aşkar etmiş və onları Peterburq Antropoloji Muzeyinə vermişdir. Həmin illərdə Beyer tərəfindən aşkar olunan əmək alətlərinin bir qismi Peterburq və Tiflis muzeylərinə, bir qismi isə Naxçıvan şəhər məktəblərindən birinə verilmişdir. Bu məktəbin müfəttişi K.A.Nikitin əmək alətləri ilə tanış olmuş, onlardan qədim duz mədənlərində istifadə olunduğunu qeyd etmişdir.

1897-ci ildə İ.S.Polyakov Duzdağda arxeoloji kəşfiyyat işləri apararkən şaxtaların birindən xeyli əmək alətləri aşkar etmiş və onları qədim metal dövrünə aid etmişdir. Ondan sonra bir çox tədqiqatçılar Duzdağdan aşkar olunan əmək alətlərini İspaniya, Şimali Amerika, Sibir və Saxalinin eynitipli tapıntıları ilə müqayisə edərək onların qədim dövrə aid olduqlarını qeyd etmişlər.

1895-ci ildə Qafqazın arxeologiyası və etnoqrafiyası ilə məşğul olan P.N.Nadejdin tapıntılarla tanış olduqdan sonra onlardan duz çıxarmaq üçün istifadə olunduğunu qeyd etmişdir. Həmin daş çəkiclər haqqındakı məlumatlar M.M.Hüseynov tərəfindən nəşr etdirilmişdir.

Qədim duz mədənləri 1967-ci ildə uçqun nəticəsində təsadüfən aşkar olunmuşdur. Dağıntı yerindən xeyli daş çəkiclər aşkar edilmişdir. Onların biri irihəcmli olub, 30 kiloqram ağırlığındadır. Daş çəkiclərin bir qismi Naxçıvan Dövlət Tarix Muzeyinə verilmişdir. Uçqun nəticəsində qədim mədənlərin girişi tutulmuşdur. 1976-cı ildə müasir tuneldə aparılan dağ-mədən işləri zamanı qədim mədənin yolu açılmışdır. Yol 70 metr uzunluğunda tuneldən ibarət olub, eni bəzi yerlərdə 6 metr, bəzi yerlərdə isə 20 metrdir. Tunelin hündürlüyü 10 metrdən çoxdur. Tunel bir-birini əvəz edən 10 zaldan ibarətdir. Onların birində duzdan yonulmuş beş sütun vardır. Mədəndə aparılan tədqiqat zamanı ocaq yerləri, divarlarda isə his izləri aşkar edilmişdir. Bəzi yerlərdə duz laylarının arasına vurulmuş ağaclar, döşəmədə gil qab qırıqları, maral buynuzunun qalıqları qeydə alınmışdır. Mədənin divarında bir yerdə şaquli xətlərdən ibarət işarələrə təsadüf edilmişdir. Tədqiqatçıların fikrincə, bu, qədim say sistemi ilə bağlı olmuşdur. Şübhəsiz ki, həmin işarələrlə çıxarılan duzun miqdarı qeyd edilmişdir.



2006-2011-ci illərdə Duzdağda beynəlxalq Azərbaycan-fransız arxeoloji ekspedisiyası araşdırmalar aparmışdır. Arxeoloji tapıntılar Duzdağda şimaldan cənuba doğru 3 kilometrlik bir məsafədə yayıldığından qazıntının yerini və həcmini müəyyən etmək olduqca əhəmiyyətli idi. Keramika parçaları və mikro daş alətlər Duzdağdan kənarda, o cümlədən Cəhri Xoru adlanan hissədən də tapılmışdır. Bu arazi, böyük ehtimalla, şaxtaçıların içməli suya olan tələbatını ödəmək üçün müvəqqəti olaraq dayandıqları yer olub.

Araşdırmalar zamanı Eneolit və Erkən Tunc, Dəmir dövrlərinə və Orta əsrlərə aid keramika məmulatları, daş çəkiclər tapılmışdır. Mədənlərdən aşkar edilmiş maddi-mədəniyyət qalıqları, xüsusilə daş çəkiclər əsasında, demək olar ki, bu duz yataqlarından eradan əvvəl V-III minilliklərdə geniş istifadə edilmişdir. Duzdağ mədənləri Erkən Tunc dövründə xüsusilə geniş istismar edilmişdir. Duzdağın cənub ətəkləri boyunca, şimaldan cənuba doğru təqribən 3 kilometrlik məsafədə aşkar olunan Erkən Tunc dövrü keramikası bunu bir daha təsdiq edir. Araşdırmalardan məlum olmuşdur ki, Duzdağ yuxarıdan aşağıya doğru bir-birini əvəz edən qırmızı və göy rəngli laylardan ibarətdir. Qırmızı rəngli laylarda duz kristallarına rastlanmamış, göy rəngli laylar isə duzla zəngin olmuşdur. Qədim mədən izləri məhz bu laylarda aşkar olunmuşdur. Müəyyən edilmişdir ki, duz qədim dövrlərdən başlayaraq həm açıq üsulla, həm də tunellər qazılmaqla çıxarılmışdır. Duz çıxarıldıqdan sonra mədənlərin yaxınlığındakı "iş yerləri"ndə ilkin emal olunmuş sonra isə yaşayış yerlərinə aparılmışdır. Duz mədənlərinin yaxınlığında qədim yaşayış yerləri Cəhri Xorunun yaxınlığında və Kəngərli rayonunun keçmiş Sust kəndi ərazisində rastlanmışdır. Qeyd edək ki, bu kəndin yaxınlığında olan duz yataqlarında qədim əmək alətlərinə və keramika parçalarına da rast gəlinir. Əmək alətləri tipoloji cəhətdən bir-birindən az fərqləndiyi üçün qədim mədənlərin tarixinin müəyyən edilməsində keramika məmulatları əsas rol oynamışdır.

Araşdırmalar zamanı müəyyənləşdirilmişdir ki, Yaxın Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrin formalaşmasında Naxçıvanın xammal ehtiyatları, o cümlədən duz əsas yer tutmuşdur. Eneolit dövründən başlayaraq duz, həm də mübadilə vasitəsi olmuş, ticarət məqsədilə Şərq ölkələrinə aparılmışdır. İnsanların məişətinə daxil olan duz onların ideologiyasının formalaşmasında müəyyən yer tutmuş, duzla bağlı inanclar yaranmışdır. Bu tip inanclar Azərbaycan xalqı arasında xüsusilə geniş yayılmışdır.

Duzdağda aparılan arxeoloji araşdırmalar qədim dağ-mədən işinin infrastrukturunu müəyyən etməyə imkan vermişdir. Duzdağdan əldə edilən maddi-mədəniyyət nümunələri yalnız Azərbaycanda deyil, bütövlükdə Cənubi Qafqaz və Yaxın Şərq ölkələrində dağ-mədən işinin yaranmasını öyrənmək üçün əhəmiyyətlidir. Hazırda Duzdağ dünyanın ən qədim duz mədəni hesab edilir.

Bu gün Duz Muzeyinin yaradılması ilə bağlı əməli tədbirlər həyata keçirilməkdədir. Əminik ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı Vətənimizin bu qiymətli sərvətinin, həmçinin Duzdağdan aşkar olunmuş maddi-mədəniyyət nümunələrinin qorunub saxlanması və ulu əcdadlarımızın tarixinin təbliğində mühüm rol oynayacaqdır.

**Vəli BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*

---

# Bir kəpənəyin səyahəti : Naxçıvan zümrüdü

***Kəpənəklər təbiətin ən gözəl və zərif, xüsusən də uşaqlar tərəfindən sevilən varlıqlarıdır. Elə böyüklər də günəşli bir bahar günündə çiçəyin üzərində qonan bir kəpənək görəndə çox sevinirlər. Günümüzdə dünyada ölçüsü 1,5-30 santimetr arasında dəyişən kəpənəklər vardır. Onlarda ən diqqəti çəkən məqam isə ömürlərinin çoxunu tırtıl şəklində keçirmələridir. Ancaq sonra bu varlıqlar elə bir gözəlliyə bürünür ki, görənləri heyran edir.***

Kəpənəyin həyat hekayəsi bir yaşamaq uğrunda mübarizə hekayəsidir. Yumurtadan kəpənəyə dönmə yolçuluğu təbiətin ən inanılmaz hekayələrindən biridir. Bütün çətinliklərə və təbiətin şıltaqlıqlarına, sayların qat-qat azaldan quşların amansızlığına rağmən, müdafiəsiz görünən bu canlıların həyatda qalmaq üçün mübarizələrinin hədiyyəsi isə al-əlvan rəngli qanadlarla keçirdiyi cəmi bir neçə gündür.

Qonşu Türkiyədə adı "Qırmızı kitab"a düşən bir kəpənək növü var. Bu kəpənək növü "Naxçıvan zümrüdü" adlanır. Bəli, heç də səhv oxumadınız. Türkiyədə dərc edilən "Qırmızı kitab"da rəngi zümrüd yaşılı, zərli qanadları ilə göz oxşayan bir kəpənəyin fotosu diqqətimizi cəlb etdi və onun haqqında məlumatı oxuyanda aydın oldu ki, o, "Naxçıvan zümrüdü" adlandırılır.

Elmi mənbələrdə "Callophrys", "Callophrys Danchenkoi" kimi adlar verilən bu kəpənəyin məkanları meşə talaları, daşlı-qayalı yerlər, çay kənarlarıdır. Qanad açıqlığı 1,8 santimetrdir. Kəpənək növləri arasında ən gözəl görünüşlülərdən biridir. Onun uçuşu da ritmik bir musiqi altında süzən birinin rəqsini xatırladır.



AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Zooloji tədqiqatlar şöbəsinin böyük elmi işçisi, dosent Mahir Məhərrəmovla söhbət zamanı bildirdi ki, populyar adı "Naxçıvan zümrüdü", elmi adı isə "Callophrys Danchenkoi" olan bu növün Türkiyədə yarımnövü yayılıb. Bu növ ilk dəfə Naxçıvan ərazisində tapılıb. 1986-cı ildə Rusiya alimi Aleksandr Dançenko Naxçıvan Muxtar Respublikasının Buzqov kəndi ərazisinə ekspedisiya edib və bu ekspedisiya nəticəsində həmin ərazidə dəyərli materiallar toplayıb. Həmin ekspedisiya materiallarını özü ilə Rusiyaya aparıb. 1998-ci ildə Qazaxıstan entomoloqu Aleksandr Jdanko dissertasiya yazır və Dançenkonun elmi tapıntılarını tədqiq edir, bu materiallar əsasında bu növün yeni təsvirini verir. O, bu növü Aleksandr Dançenkonun şərəfinə "Callophrys Danchenkoi" adlandırır. Dançenkonun yazdığı məlumatları araşdırarkən məlum olur ki, alim onu xalq arasında çaşır bitkisi (elmi adı ferula) kimi tanınan bitkinin çiçəkləri üzərindən əldə edib. Naxçıvan zümrüdü öz sürfələrini may ayında bu bitkinin üzərinə qoyur.

Sonda onu qeyd etmək istərdik ki, son illərdə Naxçıvan Muxtar Respublikasında onurğalı və onurğasız heyvanlar aləminin tədqiqi, səmərəli istifadəsi və mühafizəsinin bioloji əsaslarının öyrənilməsi üçün araşdırmalar aparılsa da, "Naxçıvan zümrüdü" (Callophrys Danchenkoi) haqqında muxtar respublikada heç bir mənbədə bu haqda araşdırma xarakterli məlumata rast gəlinmir. AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Zooloji tədqiqatlar şöbəsinin vikipediya səhifəsində də bu haqda məlumat yoxdur. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görən Zooloji tədqiqatlar şöbəsinin "Naxçıvan Muxtar Respublikasının onurğasızlar faunasının taksonomik spektri" kitabında bu kəpənək növü haqqında heç bir məlumata rast gələ bilmədik. Zooloji tədqiqatlar şöbəsinin böyük elmi işçisi, dosent Mahir Məhərrəmov özü də etiraf etdi ki, bu növ haqqında yetəri qədər məlumat olmadığından o, kitabda öz əkini tapmayıb.

Araşdırmalarımız zamanı o da məlum oldu ki, Azərbaycan üzrə heç bir kitabda bu haqda məlumat yoxdur. Azərbaycanda 4500-ə yaxın kəpənək növü öyrənilsə də, bu növ nədənsə tədqiqata cəlb olunmayıb. Ümid edirik ki, bu yazımızdan sonra "Naxçıvan zümrüdü"nün öyrənilməsinə başlanılacaqdır.

İlk bahar aylarında zümrüd rəngli kəpənəklərlə bağ-bağçalarınızda qarşılaşsanız, onları qorumağa səy göstərin, övladlarınıza da bunu məsləhət edin. Çünki onlar doğma diyarımızın adını tanıdan canlılardır, Naxçıvan zümrüdləridir.

**Səbuhi HÜSEYNOV**

---

***Gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın formalaşdırılmasına xidmət edən "Oxunması zəruri olan kitablar haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamından irəli gələn vəzifələrin yerinə yetirilməsi muxtar respublikanın təhsil müəssisələrində diqqət mərkəzində saxlanılır.***

# Oxunması zəruri olan kitablar müzakirə edilib



Bu məqsədlə Naxçıvan Şəhər Təhsil Şöbəsi tərəfindən şəhər ümumtəhsil məktəblərində keçiriləcək tədbirlərlə bağlı qrafik tərtib olunub. Qrafikə əsasən hər ayın ikinci və dördüncü həftəsinin cümə günləri ümumtəhsil məktəblərində görüşlərin keçirilməsi, həmin kitablar haqqında müzakirələrin aparılması nəzərdə tutulub. İlk belə tədbir Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbdə keçirilib. Burada Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası əməkdaşlarının məktəbin şagird və müəllim kollektivi ilə görüşü təşkil olunub.

Tədbirdə kitabxananın əməkdaşı Samirə Əliyeva adıçəkilən sərəncamın mahiyyəti barədə məlumat verib. Bildirilib ki, mütaliə insanın daxili aləminin zənginləşdirilməsində, dünyagörüşünün düzgün formalaşdırılmasında, nitq qabiliyyətinin inkişaf etdirilməsində mühüm əhəmiyyət daşımaqla yanaşı, həm də müsbət insani və iradi keyfiyyətlərin yaradılmasında böyük rol oynayır. Bu dövlət sənədinin imzalanması gənclərdə mütaliəyə olan marağın artmasına, onlarda bədii zövqün formalaşmasına mühüm təsir edəcək.

Sonra Samirə Əliyeva siyahıda yer almış "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Yeni 2001-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti", Naxçıvan şəhər 1 nömrəli orta məktəbin dərs hissə müdiri Cəmilə Nağıyeva "Eynəli bəy Sultanov. Məqalələr", məktəbin ədəbiyyat müəllimi Naibə Hacıyeva "Nizaminin hikmət və nəsihətləri", Naxçıvan Şəhər Təhsil Şöbəsinin əməkdaşı Təhminə İbrahimova "Məhəmməd Tağı Sidqi. Məktəb hekayələri" kitabları barədə çıxış ediblər.

**Fatma BABAYEVA**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 815